Səh. 2 Belə havalarda – Azər Musaoğlu
Səh. 5 Şəhidliyə Borçalıdan baxanda – Esmira Ələkbərli
Səh. 6 Hər kəsin məsuliyyəti insanlığı nisbətindədir – Lamiyə Hacıyeva
Səh. 6 Hər şey uşaqlıqdan başlayır – Aytən Fətullayeva
Səh. 3 Quran əxlaqını səmimi olaraq yaşamaq – Hacı Bəkiroğlu
Səh. 4 XALQ MÜDAFİƏÇİSİ: ƏSAS PROBLEMLƏRDƏN BİRİ ETNİK AZLIQLARIN İNTEQRASİYASI VƏ GÜRCÜ DİLİNİ ÖYRƏNMƏSİ MƏSƏLƏSİDİR
Səh. 7 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2024-CÜ İL
№ 01 (196)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## PARLAMENT SEÇKİLƏRİ OKTYABRIN 26-DA KEÇİRİLƏCƏK




Oktyabrın 26-da Gürcüstanda parlament seçkiləri keçiriləcək. Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) məlumat yayıb.

MSK siyasi partiyaları 2024-cü ildə keçiriləcək parlament seçkilərində iştirak etmək üçün lazımi prosedurları vaxtında həyata keçirməyə çağırıb.

Bildirilib ki, 2020-ci ildə parlament seçkilərində parlamentdə mandat qazanmış siyasi partiyalar MSK-ya ərizə ilə müraciət etməlidirlər. Onlar bunu seçkiyə ən geci 57 gün qalmış etməlidirlər.

Digər partiyalar isə iyulun 15-dək imza vərəqələri almalı və topladıqları 25 min imzanı avqustun 1-dək MSK-ya təqdim etməlidirlər.

Qeyd edək ki, builki seçkilər yalnız proporsional sistem üzrə keçiriləcək.

Seçkilərdə iştirak edən siyasi partiyalar parlamentə düşmək üçün 5 faizlik həddi keçməlidir.

## İVANİŞVİLİYƏ GÜRCÜSTANIN BAŞ NAZİRİ VƏZİFƏSİNƏ NAMİZƏDLİK SƏLAHİYYƏTİ VERİLİB



Gürcüstanın hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının nizamnaməsində dəyişiklik edilib.

Dəyişikliyə əsasən, "Gürcü arzusu"nun qurucusu və fəxri sədri Bidzina İvanişviliyə yeni səlahiyyətlər verilib. Partiyanın fəxri sədri bundan sonra ölkənin baş naziri vəzifəsinə namizədliyini irəli sürə bilər.

Gürcüstanın Ədliyyə Nazirliyi partiyanın nizamnaməsinə təklif olunan bu dəyişikliyi təsdiq edib.

Nizamnaməyə görə, siyasi şura partiyanın fəxri sədrinin irəli sürdüyü namizədi Gürcüstanın baş naziri vəzifəsinə təsdiqləyir.

Bundan əlavə, partiyanın fəxri sədrinin və ya siyasi şuranın qərarı ilə partiyanın növbədənkənar qurultayı çağırıla bilər.

Qeyd olunub ki, siyasi şura partiyanın fəxri sədri və partiya qurultayında seçilən 15 üzvdən ibarətdir.

## FƏRDİ YAŞAYIŞ EVLƏRİ İLƏ BAĞLI TİKİNTİ AMNİSTİYASI QÜVVƏYƏ MİNİB



Hökumətin qərarına əsasən, yanvarın 1-dən Gürcüstanda vətəndaşların inşa etdirdikləri fərdi yaşayış evləri ilə bağlı tikinti amnistiyası qüvvəyə minib.

Qərarda deyilir ki, tikinti amnistiyası 2024-cü il yanvarın 1-dək fiziki şəxsə məxsus torpaq sahəsində yerləşən, qanunsuz fərdi tikililərə şamil ediləcək.

Ədliyyə naziri Rati Breqadze jurnalistlərə müsahibəsində deyib ki, tikinti amnistiyası bir milyondan çox insanı əhatə edəcək.

Onun sözlərinə görə, Gürcüstanda kütləvi şəkildə qanunsuz fərdi yaşayış evləri tikilir. Məhz buna görə də dövlət reyestrinin yeni çıxarışlarında torpaq sahəsində tikinti sənədləri olmayan tikililərin olması qeyd olunur: *"Mövcud vəziyyət müvafiq olaraq həmin obyektlərin tam olaraq dövlət qeydiyyatına alınmasının mümkünsüzlüyünü göstərir. Mülkiyyət hüquqlarını tam təmin etmək, habelə qanunsuz tikintidən yaranan riskləri birdəfəlik aradan qaldırmaq üçün Baş nazirin təşəbbüsü ilə parlamentə təqdim olunacaq amnistiya layihəsi hazırlamışıq".*

Nazir deyib ki, layihə 2024-cü il yanvarın 1-dək fiziki şəxsə məxsus torpaq sahəsində, tikinti sənədləri olmayan tikililərə şamil ediləcək. Həmçinin belə evlərdə yaşayan insanların artıq leqallaşdırmanın mürəkkəb prosedurundan keçməsinə ehtiyac qalmayacaq və tikililər isə artıq cərimə və ya sökülmək riski daşımayacaq.

*"Təşəbbüs bir milyondan çox insanı əhatə edəcək. Ümid edirik ki, bu problem aradan qaldırıldıqdan sonra qanunsuz tikililərlə bağlı bütün çətinliklərə son qoyulacaq və 2024-cü il yanvarın 1-dən Gürcüstanda istənilən fərdi ev qanuni şəkildə tikiləcək",* – deyə Rati Breqadze bildirib.



# BELƏ HAVALARDA

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Ötən günlərdə avtobusla işdən evə qayıdırdım. Əsl librokubikularistlərin havası idi. Belə havalarda ağılsız adam evdən bayıra çıxar, – deyirlər biz tərəflərdə...

*"Təkərlər altında döşənib yağış.*
*Yağış döngəsindən keçir maşınlar,*
*yağış küçəsindən qaçır adamlar.*
*Belə havalarda neyləmək olar?" (İsa İsmayılzadə).*

Belə havalarda kitabı da götürüb özünü yorğan-döşəyə verirsən, düzdür, şərait, iş-güc, qayğılar imkan verməsə də, sən də "belə havalarda ağılsız adam evdən bayıra çıxar" bəhanəsi ilə bir-iki saatlıq isti yatağında kitab oxuyaraq librokubikularist olmağa cəhd edirsən, əlbəttə, yuxu basıb, mürgü döyməsən...

Təəssüf ki, biz tərəflərdə pluviofil olmağın müşkül məsələ olduğu kimi, librokubikularist olmağın da çətin məsələ olmasını uzun-uzadı izah etməyə gərək yoxdur. Belə ki, qayıdaq yağışın pəncərələrinə çırpdığı soyuq avtobusa...

Adətən həmişə ağzına kimi dolu olan avtobusda bu dəfə sürücü ilə birlikdə yeddi nəfər var idi. Dedik axı: belə havalarda ağlı başında olan evində oturar. Feministlərin gözündən iraq, yeddi nəfərdən biri qadın idi. Məndən başqa hamı yaşlı nəslin nümayəndələri idilər. Sağ olsunlar, sərnişinlərdən ikisi digərlərini bir saatlıq yolu yağışın suyundan pəncərələrdən heç nə görünməyən mənzərəyə baxaraq "darıxmağa" qoymadılar.

Elə bil hansısa tok-şouda idilər. Elə bil ölkənin Avropa İttifaqına üzvlüklə bağlı namizəd statusunu bu iki nəfərdən icazə almadan vermişdilər. Elə bil Avropanı, Amerikanı "neprav" çıxarmağı qarşılarına məqsəd qoymuşdular. Elə bil kimsə bunlara qrant və ya qonorar vermişdi ki, yol boyu bir saat sürücü də daxil olmaqla bu beş nəfərdə Avropaya, Amerikaya nifrət, sovet hökumətinə, Rusiyaya sevgi yaratsınlar, aşılasınlar, təbliğ etsinlər və sair, və ilaxır.

Rusiya telekanallarının, propaqandasının yetirmələri olan bu iki yaşlı dayı Ukraynadan girib Suriyadan çıxdılar, Putinin əli ilə Qarabağı aldılar, Ukraynada faşizmin kökünü kəsdilər, Gürcüstanın xilasının "rıçaqını" Putinin qanlı əllərində tapdılar, Amrikanı və Avropanı Qafqazdan qovdular, Rusiyanı dünyanın ən güclü ölkəsi, Putini bəşəriyyətin müqəddəs xilaskarı etdilər, sovet vaxtı yedikləri yağı tərifidlər, "qızıl onluğun" üstündəki Leninin keçəl başına and içdilər, Stalini amerikalılara zəhərlətdilər, 25 rubla Moskvaya uçub restoranda nahar edib geri qayıtdılar, qazın ucuzluğunu yadlarına salıb qazlandılar, başladılar Avropanı söyməyə, bütün müharibələri, xəstəlikləri, virusları, bahalaşmanı, pozğunluğu konspiroloji cümlələrlə Avropanın üstünə yıxdılar və Avropa Birliyindənsə Rusiyaya birləşməyi səmimi-qəlbdən arzu edərək məsləhət gördülər...

Digər sərnişinlər də arada başlarını silkələməklə, ya "hə, hı" deməklə bu iki yaşlı dayı ilə həmrəy olduqlarını bildirirdilər.

Feministlərin qulağından iraq, avtobusda olan yeganə qadın sərnişinin telefonuna gələn zəng qızğın söhbəti dayandırdı, qurbağa gölünə daş atdı. Qadın vatsapla Rusiyadakı qohumları ilə danışmağa başladı. İndi hamı ona qulaq asırdı...

Mənsə öz-özümə fikirləşirdim: görəsən bu qadın Rusiyanın aplikasiyalarını qoyub niyə amerikalıların vatsapından istifadə edir, özü də amerikalıların ayfonu ilə. Sonra bayaqdan Rusiyanı tərifləyənlərə və onlarla həmrəy olanların əyin-başlarına baxdım: bir dənə də olsa Rusiyaya aid məhsul, marka, əşya tapa bilmədim – hamısı Avropaya, Amerikaya, Türkiyəyə, Çinə aid idi, hətta bizi evə aparan avtobus da Amerika istehsalı idi. Və əminəm ki, evlərindəki məişət əşyalarından tutmuş paltar-palaza – Rusiya istehsalı heç nə yoxdur, "qırağa tulladıqları" pullar belə Amerika dollarıdır, Rusiya rublu yox.

İstədim deyəm: Rusiya cəhənnəm, siz özünüz bir milçək ixtira edib düzəltmisinizmi ki, Avropa mallarından istifadə edə-edə, Avropa qanunlarına sığına-sığına Avropa İttifaqına üzvlüklə bağlı namizəd statusunun verilməsinə qarşı çıxırsınız, bəyənmirsiniz, nankorluq edirsiniz; yaxşı ki, ölkənin taleyi elə sizin kimilərin əlində deyil...

Demədim. Bu balşevik başlara onsuz da xeyiri olmayacaqdı. Belə havalarda mübahisə edənin də ağlı yoxdur. Sonra? Sonra heç nə:

*"Bağlandı düymələr, gizləndi əllər,*
*bu yağış altında qoyub axşamı*
*yenə öz evinə çəkildi hamı" (İsa İsmayılzadə).*

## ZİYARƏTGAHLARIN TƏHQİR EDİLMƏSİNƏ GÖRƏ CƏZANIN SƏRTLƏŞDİRİLMƏSİ TƏKLİF OLUNUB



Gürcüstanın hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyası yaxın vaxtlarda ziyarətgahların təhqir edilməsinə görə cinayət məsuliyyətini sərtləşdirən qanun layihəsinin təşəbbüskarı olacaq. Bu barədə brifinqdə Gürcüstan parlamentinin hüquq komitəsinin rəhbəri Anri Oxanaşvili bildirib:

"Komandamız yaxın vaxtlarda dini tikililərin və obyektlərin təhqir olunmasına görə cinayət məsuliyyətinin sərtləşdirilməsi üçün qanunvericilikdə dəyişikliklər edilməsi təşəbbüsü ilə çıxış edəcək. Bu, həm pravoslav xristianlar, həm də digər dini tikililərə, məsələn, məscidlərə, sinaqoqlara, katolik və digər kilsələrə aiddir".

A.Oxanaşvilinin sözlərinə görə, təşəbbüsə Müqəddəs Üçlük Katedralında İosif Stalinin də təsvir olunduğu Moskva Matronası ikonasının üzərinə boya tökülməsi ilə bağlı insident səbəb olub. Komitə rəhbəri vurğulayıb ki, mövcud qanunvericiliyə görə, belə bir fakt proporsional məsuliyyət nəzərdə tutmur.

## İQTİSADİYYAT NAZİRİ: QARA DƏNİZİN DİBİ İLƏ ÇƏKİLƏCƏK KABEL REGİON ÖLKƏLƏRİNİN İQTİSADİ İNKİŞAFINI SÜRƏTLƏNDİRƏCƏK



Qara dənizin dibi ilə çəkiləcək kabel region ölkələrinin iqtisadi inkişafını sürətləndirəcək, enerji müstəqilliyini möhkəmləndirəcək. Bu sözləri jurnalistlərə müsahibəsində Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili söyləyib.

Onun sözlərinə görə, region ölkələri gələcəkdə bərpaolunan mənbələrdən əldə edəcəyi əlavə elektrik enerjisini bu layihə sayəsində ixraca yönəldə biləcək.

Qeyd edək ki, Gürcüstan və Azərbaycandan elektrik enerjisinin Avropaya ötürüləcəyi kabelin çəkilməsi haqqında saziş 2022-ci ilin dekabrında Gürcüstan, Azərbaycan, Rumıniya və Macarıstan hökumətləri tərəfindən imzalanıb.

## GÜRCÜSTANIN MÜDAFİƏ QÜVVƏLƏRİNİN SAYI 37 MİN NƏFƏR OLACAQ



Gürcüstan parlamenti "2024-cü ildə Gürcüstanın Müdafiə Qüvvələrinin sayının müəyyən edilməsi haqqında" yeni qərar qəbul edib. Qərarla Gürcüstan Müdafiə Qüvvələrində hərbi personalın hazırkı sayı müəyyən olunub.

Qəbul edilmiş qərara əsasən, ölkənin Müdafiə Qüvvələrinin sayı 37 min nəfərdən çox olmayacaq. Bu məhdudiyyət Gürcüstan Müdafiə Nazirliyinin hərbi qulluqçularına, ehtiyatda olanlara və müvəqqəti tam ştatlı işçilərinə şamil edilmir.

Qeyd edək ki, bu gün Gürcüstanda hərbi xidmət dörd kateqoriyaya bölünür. Bunlar icbari, müqaviləli, kadr və ehtiyatda olan kateqoriyalardır.

# İKİNCİ MÖHTACLIQ



Qonşu qadın doxsanı haqlamaqda olan anasının söhbətini kəsərək: "Bir sözü nə qədər təkrarlamaq olar", – deyib, biçarənin sözünü ağzında qoyur. Mən bu olub-keçənlərə sırf təsadüf nəticəsində şahidlik edirəm. Yoxsa mənim kiminsə söz-söhbətinə gizlindən qulaq asmaq kimi istəyim yerli-dibli yoxdur...

...Uşağın özünü batırmasını, üst-başını çirikləndirməsini təbii hesab edirik, bunun faciə olmadığını söyləyirik. Əksinə, bəzən bunu özümüz üçün sevinc qaynağına da dönüşdürə bilirik. Yəni uşağın bu cür hərəkət etməsini necə var qəbul edərək, bunu onun ağlıkəsməzliyinə, etdiklərinin mahiyyətini anlamamasına və ya yetkinləşməməsinə bağlayırıq. Onun altını-üstünü təmizə çıxarmaq üçün bir əl-ayaq da satın alırıq.

Yenicə dil açan uşağın sözləri qıra-qıra tələffüz etməsi bizə bir başqa cür ləzzət edir, diş çıxarması bir başqa. Uşağın ilk sözü deməsi ilə sevincimiz yerə-göyə sığmır, az qala qol qaldırıb oynamaq istəyirik. Bəlkə oynayanlarımız da var. Körpənin sözlərin qol-qabırğasını qıra-qıra danışması, rabitəsiz nitqi kefimizi ala buludda oynadır, ona eyni bir sözü, eyni bir hərəkəti etdirməkdən usanmırıq, uşaq bundan bezsə də, biz tövbələr olsun, əl çəkmirik. Onu danışdığına peşman edirik.

Uşağın ilk dişinin çıxmasını toy-bayrama döndərir, "qıcını göstər" deməkdən biçarə uşağı əldən salır, şitini çıxararaq onun bərkiməmiş orqanizminə zülm edirik. Heç etdiyimizin fərqinə də varmırıq ki, bununla uşağa nə qazandırırıq, bunun uşağa nə xeyiri var. Biz uşağı əyləndirmək əvəzinə özümüzü əyləndiririk.

Onun hər yeni sözü, hər yeni hərəkəti bizə qol-qanad verir. Uşağın həyatında baş verən ən xırda yenilik barədə yaxınlarımızı sevinclə muştuluqlayırıq. Sanki uşağımız yeni hərəkətindən sonra, köhnə kişilər demiş, at minib qazanc gətirməyə gedəcək. Yeni təbirlə desək, təyyarəyə minib Avropaya üz tutacaq. Uşağa münasibətdə davranışımız bu şəkildə əndazəni aşır.

İndi deyək ki, bu uşaq böyüdü, ailə qurdu, oğul-uşaq, hətta nəvə-nəticə yiyəsi oldu. Artıq qoca qarıya, ixtiyar kişiyə çevrildi. Uşaqlığından, gəncliyindən əsər qalmaması, gözəlliyinin övladlarına keçməsi təbii bir haldırmı? Əlbəttə. Onun qulağının ağır eşitməsi, gözünün zəifləməsi, dişinin tökülməsi, canım sənə desin, sir-sifətinin qırışlarla örtülməsi də təbii prosesin nəticəsidir. Ayağının taqətinin, dizinin təpərinin onu tərk etməsi, əlinin əsməcə tapması da təbii olmalı deyilmi? Hələ ağlında, danışığında əskiklərin olmasını demirəm. Yəni qocalıb-qarımaq onun öz əlində deyil, onun özündən asılı olmayaraq baş verən fizioloji, həm də psixoloji bir prosesdir. Qocalmaq hər kəsin ən halal, ən təbii haqqıdır.

Qocalmış şəxsin köməyə möhtaclığı da təbii görünməlidir. Gözünün zəifliyinə gözlük yardım edirsə, tökülmüş dişini protezlə əvəz etmək, lap elə implant diş əkdirməklə aradan qaldırmaq mümkündür. Eşitməyən qulağına da çarə tapmaq olar. Xüsusi cihazla onun bu əskiyini də tamamlamaq imkanı var. Yeriməyən ayağına üçüncü ayaq – əlağacı əlavə etsək qocalığın bir çox çatışmazlığını aradan qaldıra bilərik. Bura qədər hər şeyin yolunda getdiyini düşünmədən təsdiqləmək olar. Bundan sonrasını yeni abzasdan oxuyaq.

Qocanın yeməyi var, yuyunmağı-yaxanmağı var, dırnağının kəsilməsi, saçının-başının qaydaya salınması, altının-üstünün dəyişdirilməsi, dediyim və demədiyim bir sürü işi var. Maraqlı olan odur ki, uşaqlığın köməksiz, yardıma möhtac vaxtlarında ona hamı – ata-ana, nənə-baba, əmi-dayı, xala-bibi, hətta qonum-qonşu can-başla əl uzadar, bunu dəfələrlə etməkdən nə yorulan, nə də usanan olardı. Onun ayağa durması, böyüyüb adam cərgəsinə qatılması üçün hamı əlbirliyi ilə hərəkət edərdi.

O, kiminləsə söhbət etməli deyilmi? Nə olsun nitqi rabitəsizdir? Uşaqlıqda bundan da rabitəsiz danışmırdımı? Bəs onda niyə hamı onun heç bir məna ifadə etməyən sözlərinə qulaq asıb sevinirdi?

İndi də köməyə, diqqətə ehtiyacı var. Yuxarıda sadaladığım hər şeydə onun yanında bir yardımçı olmalıdır. Oğul-qız işdə-gücdə, nəvələrsə öz keflərində və ya hansısa sosial şəbəkədə virtual bir dünyanın içində. Qonum-qonşu, qohum-əqrəba onun varlığını, yoxluğunu unutmuş kimi. Artıq onun yaşaması xəbərini deyil, ölüm xəbərini dörd gözlə gözləyənlər də var, "ölmədi özünün də canı dincələ, evdəkilərin də", – deyənlər də bir artıq.

Gərəksiz əşyaya çevrildiyini özü də anlamışmı, görən ola?

**Afiq MUXTAROĞLU**

# QURAN ƏXLAQINI SƏMİMİ OLARAQ YAŞAMAQ



**Hacı BƏKİROĞLU**

hacihaciyev@hotmail.com

Cəmiyyətdə əksəriyyətin həyat şəklinin və tətbiq etdikləri qaydaların doğru olduğu kimi bir inanış şəkli hakimdir. Sanki bir dindir bu yaşanan. Bu dinin mənsublarının cəmiyyətin əksəriyyətini təşkil etməsi digər insanları da səhv istiqamətləndirir. Halbuki Quran bizə "…Ancaq insanların əksəriyyəti inanmazlar" (Hud, 17) ayəsiylə əksəriyyətin səhv yolda olduğunu xəbər verir.

Quran əxlaqını gerçək mənada qavramamış olan kəslərə görə Allahın buyruqları xaricində də insanların uyması lazım olan bəzi qaydalar vardır. İnsan ictimai bir fərd olduğuna görə bu qaydalara uymaq məcburiyyətindədir. Cəmiyyət fərdlərinin məmnuniyyəti əhəmiyyətlidir və "insanlar nə deyər, nə fikirləşər, mənim haqqımda belə düşünməsinlər, belə danışmasınlar" kimi düşüncələr narahatlıq səbəbidir.

Quranda cahiliyyə olaraq təyin olunan bu cəmiyyətin fərdləri təhsilli, karyera sahibi kəslər də olsalar Allahın qüdrətini və böyüklüyünü tanıya biləcək ağıl və vicdana sahib deyildirlər. İnsanların çoxunun bu cahil quruluşda olması və digərlərinin də bu əksəriyyətin davranışlarını meyar almaları bütün cəmiyyətin cəhalət bataqlığında yaşamasına səbəb olar.

"Yer üzündə olanların əksəriyyətinə uyacaq olsan səni Allahın yolundan sapdırarlar. Onlar ancaq zənndən başqa bir şeyə tabe olmazlar, yalandan başqa bir söz də danışmazlar" (Ənam, 116) ayəsiylə bildirildiyi kimi, bu kəslər zənn və təxminlə hərəkət edərlər və insanları Allahın yolundan azdıraraq öz azğın yollarına çəkərlər.

Fərqli yollara düşənlər özləri kimi acizlik içindəki insanlara tabe olar, onların fikirlərini doğru olaraq qəbul edərlər. Vicdanlarını istifadə etmədikləri üçün zamanla eşitməyən və görməyən kəslər halına gəlirlər. Ayədəki ifadəylə bu kəslər "...kardırlar, dilsizdirlər, kordurlar. Bu səbəblə də onlar geri dönməzlər" (Bəqərə, 18).

Quran əxlaqını səmimi olaraq yaşamağa çalışan insanlar üçün gerçək meyar öz vicdanlarıdır. Vicdanı qəbul etmədiyi halda insanlar tərəfindən qınanmaqdan qorxaraq əksəriyyətin məntiqini qəbul etmək böyük yanlışlıqdır. Vicdan insanı doğruya istiqamətləndirən səsdir. Adamın cəmiyyət tərəfindən qınanmaqdan qorxması və vicdanının işarə etdiyi doğrulardan qaçınması son dərəcə ağılsızca bir davranışdır.

Ürəkdən Allaha yaxın olmaq istəyən insan vicdanını istifadə edər; əks halda isə şeytanın və nəfsin qulu olar. Vicdanının önünə "əksəriyyət belə etdiyinə görə doğru olan budur" məntiqiylə sədd çəkən adam yanılmışdır. İnsanların məmnuniyyətini, əhəmiyyət verməsini gözləyən və qınamalarından çəkinən insan Quran əxlaqını yaşamaqda çətinlik çəkər.

Quran yolunu azanları "alçaldılmış", səmimi iman sahiblərinin isə "üstün" olduğu gerçəyini vurğulayır. Quranın işığında yaşamağı seçən insan əksəriyyətin yaşadığı çətinlik və qaranlıqdan xilas olar; Allahın diləməsiylə işıqlığa və gözəlliklərə çatar.

İnsanların çoxu, iman etməmiş olsalar da, vicdan baxımından islamın doğruluğuna qənaət gətirirlər. Ancaq iman etmək fərqlidir, insanı fərqli qılar. Mömin həyatını islama, Qurana, Allaha həsr edər. Həyatın ictimai yönlərini arxa plana alar.

Allahı haqqıyla sevmək çox əhəmiyyət daşıyarkən əksəriyyətin bunu edə bilməməsi çox böyük haqsızlıqdır, vicdansızlıqdır. Həqiqətən insan "zalım və cahil"dir.

Allahın razılığı xaricində bir həyat tərzini mənimsəmək və əksəriyyətə uyğun gəlmə məntiqi insana qazanc deyil, böyük zərər gətirər. Din əxlaqından uzaq yaşayan kəslər, mənfəət uğrunda gedən döyüşlərin və düşmənliklərin yaşandığı bir cəmiyyət meydana gətirərlər. Yaşadıqları narahatlıq isə axirətdə onları gözləyən əzabın başlanğıcıdır.

"…İşdə onlar buna (Qurana) inanarlar. Qruplardan biri onu inkar etsə, atəş ona vəd edilən yerdir. Elə isə, bundan şübhən olmasın, çünki o, Rəbbindən olan bir haqqdır. Ancaq insanların əksəriyyəti inanmazlar" (Hud, 17).

## XALQ MÜDAFİƏÇİSİ: ƏSAS PROBLEMLƏRDƏN BİRİ ETNİK AZLIQLARIN İNTEQRASİYASI VƏ GÜRCÜ DİLİNİ ÖYRƏNMƏSİ MƏSƏLƏSİDİR



Levan İoseliani 2023-cü ildə təhsil və elm nazirinin dəyişikliyini müsbət fakt hesab edir. Levan İoseliani bir ildir ki, Gürcüstanın Xalq Müdafiəçisidir və parlamentdə fəaliyyəti dövründə təhsil sistemindəki problemli məsələlərə tez-tez münasibət bildirirdi.

Ombudsman müsahibəsi zamanı bildirib ki, bu gün təhsildə olan problemlərə qalib gəlmək bir mənbənin qoşulması ilə mümkün olmayacaq və beynəlxalq araşdırmalarda gürcü şagirdlərin yaxşı nəticə göstərməsi üçün bütün tərəflərin, xüsusilə də ailənin iştirakı mühümdür. Təhsildə 2023-cü ilin əsas mövzularından danışarkən Levan İoseliani etnik azlıqları, məktəb direktorları seçkisini, nazirliyin atdığı müsbət addımları xüsusi qeyd edib. Onun sözlərinə görə, bu məsələlərin həyata keçirilməsini Xalq Müdafiəçisi Aparatı müşahidə edəcək. Martda isə Gürcüstan parlamenti Xalq Müdafiəçisinin yeni hesabatını təqdim edəcək. Hesabatda təhsil istiqaməti yeni aksent və konkret araşdırma nəticələri ilə təqdim olunacaq.

**– Cənab Levan, bu gün Gürcüstan təhsil sistemində kimin hüquqları qorunmalıdır? Xalq Müdafiəçisi 2023-cü ildə və ümumiyyətlə nəyi görür?**

– Hesab edirəm ki, əsas problemlərdən biri etnik azlıqların inteqrasiyası və onların gürcü dilini öyrənməsi məsələsidir. Təhsil komponentinə nəzər salsaq, onların dövlət dilini bilmələri heç bir standarta cavab vermir. Bu kontekstdə "1+4" proqramını qeyd etmək istərdim ki, çox yaxşı proqramdır, biz bunu həmişə alqışlayırıq, lakin bu proqram həll yolu deyil və ibtidai siniflərdən həll edilməli olan problemi həll edə bilmir. Yekun nəticədə "1+4" proqramı insanın ali təhsil almaq imkanıdır, lakin əsasən (şagird üçün) gürcü dilini öyrənmək və sonra cəmiyyətə inteqrasiya olmaq tamamilə bu proqramdan asılı ola bilməz. Odur ki, bəlkə də "1+4" proqramı vacib komponentlərdən biridir, lakin təhsil sisteminin və etnik azlıqların bu sistemə inteqrasiyasının nəzərdə tutduğu zəncirdə tamhüquqlu proqram deyil.

İkinci məsələ bilinqual (ikidilli) dərsliklər, kitablardır ki, keyfiyyəti bir çox hallarda uyğun gəlmir və bu kitablarla öyrənmək təhsilin keyfiyyət standartına cavab verə bilmir. Bu mövzu ilə bağlı bir sıra araşdırmalar apardıq, həmçinin problemlə yerli səviyyədə tanış olduq. Dərsliklərlə bağlı onu deyim ki, Gürcüstanda istehsal olunmuş, müvafiq xidmətlər tərəfindən qriflənmiş kitablardan tədris prosesində istifadə olunması zəruri ilkin şərtdir. Elə hallar var ki, məsələn, Azərbaycandan gətirilən kitablarla gürcü dili və ədəbiyyatı tədris olunur, bu da təbii olaraq Gürcüstanın təhsil sisteminin standartına uyğun gəlmir. Bu məsələ həll olunmalıdır.

**– Baş nazir ilin xülasəsini təqdim edərkən etnik azlıqların nümayəndələrinin gürcü dilini bilməməsi probleminə də toxundu və bildirdi ki, bilinqual təhsil daha geniş şəkil alacaq, xüsusən də gürcü dilini öyrənəcək vətəndaşların dairəsi genişləndiriləcək. Sizdə hansı nümunələr var və bu vəziyyəti necə düzəltmək olar?**

– Hazırda biz bu məsələ ilə bağlı monitorinq aparırıq və iki aya yaxındır ki, Xalq Müdafiəçisinin analitik şöbəsi mövzunu araşdırır. Nümayəndələrimiz etnik azlıqların məskunlaşdığı bölgələrə gedir və digər işlərlə yanaşı, bu icmaları araşdırırlar. Yeni ildən sonra vəziyyətin nə olduğunu artıq biləcəyik. Xalq Müdafiəçisinin bu istiqamətdə tövsiyələri mart ayında parlamentə təqdim edəcəyi hesabatda daha ətraflı şəkildə əks olunacaq.

İndi deyə bilərəm ki, bilinqual təhsilin keyfiyyəti yaxşılaşdırılmalı və bu, həm bağçalardan, həm də məktəblərdən başlanılmalıdır. Areal mümkün qədər genişləndirilməlidir.

Bu üsulla tədrisdən danışanda burada müəllim problemi də ortaya çıxır. Bilinqual təhsilin keyfiyyətinin yüksəldilməsi üçün müəllimlər lazımdır, bu istiqamətdə müəllim çatışmazlığı var. Xalq Müdafiəçisi öz hesabatında bunu dəfələrlə qeyd edib. Müəllim hazırlığı məsələsi ayrıca problemdir ki, ölkədə bilinqual təhsillə bağlı olan bu vəzifələrin öhdəsindən gəlmək üçün daha intensiv şəkildə həyata keçirilməlidir. Onu da əlavə etmək istərdim ki, biz digər ölkələrdə bilinqual təhsilin ən yaxşı təcrübələrini araşdırırıq və bu təcrübələri aparılan tədqiqat çərçivəsində ümumiləşdirəcəyik.

**– 2023-cü ildə dövlət kimin hüquqlarını lazım olduğu kimi qoruya bilmədi?**

– Düşünürəm ki, işğal xəttindən kənarda yaşayan uşaqların, tələbələrin, abituriyentlərin təhsilinin keyfiyyətinə daha çox diqqət yetirilməlidir. Onlara daha çox imkan vermək lazımdır, çünki bu insanlar artıq təhlükəsizlik baxımından böyük çətinliklər altında yaşayırlar. Bu, təbii ki, mühiti çox həssaslaşdırır və orada təhsil komponentinə xüsusi diqqət yetirilməlidir. Söhbət təkcə məktəb təhsilindən getmir, mən qeyri-formal təhsili, onların idmana cəlb olunmasını təmin edən xüsusi proqramları da nəzərdə tuturam ki, bu uşaqlar yerində bunları əldə etsinlər və hamısı başqa şəhərlərə köçməli olmasınlar. Çünki bu əlavə xərclər və çətinliklər ehtiva edir. Məsələn, Perevidə yaşayan gənc Tbilisiyə gəlməsi üçün ev kirayələməli, müvafiq məkan tapmalıdır və bu, onlar üçün çox çətindir. Üstəlik, orada yaşayan sakinlər təhsillə bağlı bir sıra güzəştlərə sahibdirlər və bu xidməti ən yüksək keyfiyyətlə əldə etmək imkanına malik olmalıdırlar. Bu, həm məktəbəqədər, həm məktəb, həm də universitet təhsilinə aiddir.

**– 2023-cü ildə məktəb direktorluğuna namizədlərin etiraz aksiyasını və aclıq elan edən müəllimin davamlı kampaniyasını gördük...**

– Düşünürəm ki, məktəb direktorlarına münasibətdə ən ədalətli yanaşmadan istifadə edilməlidir. Kiminsə öz maraqlarının olduğunu kimsə düşünməməlidir...

Onlarla görüşdüm, bu insanlarla danışdım və bir çox hallarda onlar üçün verilən qərar tamamilə anlaşılmazdır. Onlarda belə bir hiss olmamalıdır ki, Təhsil Nazirliyi hansısa əlamətə görə, istər siyasi loyallıq, istərsə də, bilmirəm, başqa səbəbdən qərar verir. Burada direktorların yenidən təyinatı prosesinin şəffaf, mümkün qədər demokratik olması və bu insanların maraqlarının, onların qayğılarının nəzərə alınması ən vacib məsələlərdən biridir.

**– Parlamentdə işlədiyiniz dönəmdə tez-tez maarifləndirici məsələlərə münasibət bildirmisiniz və bu istiqamətdə fəallıq göstərmisiniz. Bəs bu gün, son bir ildə sistemdə hansı müsbət mesajları və ya addımları görmüsünüz və onların icra edilməsini nə dərəcədə gözləyirsiniz?**

– Nazirin etdiyi dəyişikliklə yanaşı, gördüyüm müsbət cəhətlərdən biri də nazirin məktəblərə, qəyyumlar şuralarına daha çox müstəqillik verməsi və qərarların qəbulunun yerində baş verməsi ilə bağlı istəklərini söyləməsidir. Bunu alqışlayıram, amma təbii ki, bu vədlərin necə yerinə yetirildiyini görəcəyik. Müəllimlərin əməkhaqlarının artmasını müsbət hesab edirəm, çünki hətta artırılacaq əməkhaqqı da, fikrimcə, inflyasiya və ehtiyac fonunda yetərli deyil, amma, hər halda, müəllimin baza əməkhaqqı layiqli olmalıdır ki, nədənsə danışa bilək.

Milli təhsil planı çərçivəsində məktəblərə veriləcək müstəqillik komponenti və təbii ki, şagirdlərin valideynlərinin məktəb qəyyumlar şuralarına daha yaxşı cəlb olunması məsələsi qeyd olunmalıdır. Təəssüf ki, bir çox hallarda iştirak çox formal xarakter daşıyır və bu da sistemli problemdir, çünki onların iştirakının heç bir nəticə vermədiyini (valideynlər) görəndə iştirak azalır. Müstəqillik komponenti yaxşılaşarsa, təbii ki, valideyn ən çox övladının təhsilinin keyfiyyəti və onların cəlb edilməsi ilə maraqlanır, onların iştirakı da təmin ediləcək. Bu, prosesə təkan verəcək və məktəblərə zəncirvari şəkildə keçərsə, həqiqətən də valideynlərin təhsil sisteminə münasibəti kökündən dəyişəcək, keyfiyyəti yüksələcək. Mən inanıram ki, valideynlərin iştirakı olmadan, təkcə nazirlik, təkcə hökumət, kim olmasından asılı olmayaraq və müəllimin əməkhaqqının artırılmasından asılı olmayaraq, nəticəni təmin edə bilməz, çünki yekun nəticədə uşağın keyfiyyətli təhsil alması valideynin marağına daxildir.

**– Valideynlər məktəblərdə pulsuz yeməyin tətbiqini tələb edirlər, bu haqda mövqeyiniz necədir?**

– Razıyam ki, məktəbdə yemək olmalıdır, amma birmənalı şəkildə deyə bilməzdim ki, hər yerdə pulsuz yemək olmalıdır, çünki başqa ölkələrin təcrübəsinə nəzər salsaq, hər yerdə yeməyin pulsuz olması o qədər də tətbiq edilmir.

Hesab edirəm ki, əsasən, bütün bələdiyyələrin uşaqların ehtiyaclarının nə olduğunu bildiyi regionlarda kiməsə qida komponenti əlavə etmək lazımdırsa, bələdiyyə bunu etməlidir. Bunu dövlət səviyyəsində həll etmək lazım deyil. Bir çox hallarda, məsələn, Tbilisidə bu mümkün qədər səmərəli olmaya bilər, amma haradasa lazımdır.

İstəmirəm ki, pulsuz yemək məsələsi bəzi populist bəyanatlar səviyyəsində qalsın. Bunun üçün araşdırma lazımdır... Məsələn, Acarada, Quriyada, Svanetidə uşaqların qidalanması ilə bağlı problemlər varsa və buna görə də təhsil istiqamətində başqa problemlər mövcuddursa, orada bələdiyyə bu məsuliyyəti öz üzərinə götürməlidir. Hə, köçürmələrin verilməsini mərkəzləşdirmək olar, amma Gürcüstanda bütün məktəblərdə pulsuz yemək tətbiq etmək, bilmirəm, bu sovet vaxtı da belə deyildi, o vaxt da yadımdadır, pul verirdik, 15 qəpik idi...

Bu (bütün məktəblərdə pulsuz yeməklərin tətbiqi), həll yolu deyil, biz problemi görüb yerlərdə o problemlə mübarizə aparmalıyıq. Effektiv şəkildə necə həll edəcəyimizi müəyyən etməliyik. Bundan əlavə, qidalanmanın özünəməxsusluğu var, hər kəsin eyni qidaya ehtiyacı yoxdur, bölgədən asılı olaraq fərqli olan konkret uşaqların və xüsusi məktəblərin ehtiyaclarını nəzərə almalısınız, rasion, bir çox başqa detallar da vacibdir.

Pulsuz yemək ehtiyaca əsasən verilməlidir, əgər konkret kənddə uşaqlar üçün bu ehtiyac varsa, orada pulsuz yemək lazımdır. Mən birinci eksperimental məktəbin qarşısında yaşayıram, oraya nə qədər uşaq gəlirsə o qədər də "Cip" gəlir. Maşını saxlayırlar, uşağı düşürüb məktəbə buraxırlar. Onların uşaqlarının qidalanma problemi olduğunu düşünmürəm, ona görə də ümumi yanaşmanın düzgün olacağını hesab etmirəm.

**– Nəhayət, qeyd etdiyiniz məsələləri nəzərə alaraq, Xalq Müdafiəçisinin təhsil ictimaiyyətinə Yeni il arzuları nədən ibarətdir?**

– Bilirəm ki, bunu bir ildə etmək olmaz, amma arzum o olardı ki, Gürcüstan növbəti PISA tədqiqatının nəticələrinə görə qabaqcıl yerlərdən birində olsun. İstedadlı xalqımızın, millətimizin, övladlarımızın o nəticələrə nail ola bilməməsi və ölkənin sonuncu yerdə təmsil olunması məni çox üzür. Ümid edirəm ki, bu dəyişəcək, lakin bunun üçün hər kəsin iştirakı lazımdır. Ailə çox önəmlidir, uşaq üçün heç kim ailənin görəcəyi işi görə bilməz.

Ailədən sonra məhz Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi gəlir və ən azı skrininq keçirməlidirlər ki, şagirdlərin qabiliyyəti düzgün müəyyən olunsun. Bu bütün dünyada belədir, uşaqların görmə qabiliyyətinin öyrənildiyi xüsusi proqramlar var, digər növ tədqiqatlar aparılır ki, bu da son nəticədə onların idrak keyfiyyətinə təsir göstərir. Həm də iştirak baxımından, təbii ki, Daxili İşlər Nazirliyini də cəlb etmək lazımdır, bu da uşaqlar üçün təhlükəsiz mühiti təmin etməlidir. Mən zorakılıq komponentini və konkret icmada problem olan və adekvat, effektiv cavab tələb edən erkən nikahlar məsələsini nəzərdə tuturam.

Əsas arzu odur ki, daha savadlı gələcək nəsil yetişsin, Gürcüstan beynəlxalq təhsil araşdırmalarında ön sıralarda təmsil olunsun.

*Mənbə: edu.aris.ge*
*Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# ŞƏHİDLİYƏ BORÇALIDAN BAXANDA



Yazarkən gözlərim önündə canlanır... Günlərlə hamı Bakıdan danışırdı, hətta kənddən yardım da yığmışdılar mitinqdəki camaata. Atam puldan başqa evdən anamın qış tədarükü mürəbbə və marinadlarını da aparmışdı. Yekə maşınla yollayırdılar. Qarşısına da yazmışdılar: "BİZ SİZİNLƏYİK". Belə yadıma gəlir... Mitinqlərdə olan tələbə gənclərə yollayırdılar. Bu tək bizim ailədə deyildi, bütün kənd, Borçalı, Qaraçöpdən Başkeçidə – hamı bu günlərdə Bakıyla nəfəs alırdı. Elə bir ailə yox idi ki, onun Bakıyla bağlılığı olmaya. Tələbədən gənclərə qədər. Biz uşaq olsaq da əmim, dayım uşaqları tələbə idilər. Əmilərim, dayılarım Bakıda yaşayırdılar. Yəni Bakıdakı vəziyyət borçalıları tək millət, mənəvi birlik kimi yox, həmçinin bir ailə üzvlərinin taleyinin narahatçılığı kimi gərginlikdə saxlayırdı. Bu gərginlik tək bizim ailədə deyildi, bütün kənd, mahal bu gərginliyi yaşayırdı.

Məktəbyaşlı uşaqlar kimi bu söhbətlərin içində olsaq da, tam məsuliyyəti ilə anlamırdıq. Mətbəxdə səhər yeməyi yeyirdik, anam həmişəki kimi Moskvanın "Utro" proqramını izləyirdi, birdən qışqırıb atamı çağırdı: "Booy, Tiflisin gününə salıblar". Atam da televizorun qarşısına qaçdı. Tez paltosunu geyinib dedi: "Bir ortalığa çıxım".

Ortalıq kənd adamlarının müzakirə mərkəzi idi. Babam "kənd şenniyi" deyərdi. Mədəniyyət evi ilə məktəb yanaşı idi. Səhər saat 8-ə qalmışdı, amma ortalıq adamla dolu idi. Yadımdadır, bir "Moskviç" maşının üstünə radio qoymuşdular, hamısı Mirzə Xəzər dediyi adama qulaq asırdı. İndi bilirəm ki, "Amerikanın səsi" radiosuna qulaq asırmışlar. Hamı onu danışırdı: "Bakını qırıblar... mitinqdəki adamları... o mitinqlərdə 10-larla kəndçilərimiz vardı..." Kəndin o gərginliyini filmlərdə, bədii əsərlərdə, Vətən müharibəsi başlarkən insanları necə təsvir etmişdilərsə mənim gözlərim önündə o bədii təsvir yaranırdı. Yadıma gəlir ki, heç məktəbdə dərs də keçilmədi. Hamı yalnız Bakıdan danışırdı. Az qala bütün kənd ortalıqda idi, ev telefonları ilə əlaqə saxlamaq istəyirdilər, nə nömrə gəldi yığırdılar – Qazax, Tovuz və digər şəhərlərin kodlarıyla. Təki bir xəbər bilsinlər. Məlumatlar qapalı idi, poçtdan belə Bakıyla danışmaq mümkün deyildi. Hamı bir-biri ilə soraqlaşırdı. Elə bil adamlar həmdərd idilər, hamının bir dərdi vardı: Bakı dərdi...

Birinci dəfə idi ki, biz məktəbdən gəldik və anam yemək bişirməmişdi. Eləcə sükuta dalmışdı. Üç qardaşı Bakıda yaşayırdı. İkisinin evi düz mərkəzdə yerləşirdi. Həyəcanı məlum idi. Bizə "nə tapırsınız yeyin" deyə atamla söhbətində idi...

Bax beləcə başlamışdı o gün – yanvarın 20-si, şənbə günü, 34 il əvvəl... Mən onda ilk dəfə eşitdim şəhid kəlməsini. Mənasını da Vətən üçün özünü fəda edən kimi anlamışdım; onlar heç zaman ölmürlər, tarix olur, qəhrəman kimi yaşayırlar. Onda məktəb radio jurnalında şəhidlərin 40-ı günü kövrələ-kövrələ bir reportaj hazırlamışdım. Ortalıq da məktəb radiosunun səsinə yığılmışdı. Uşaq yaşımla hamını ağlatmışdım... O vaxtdan 34 il keçdi. Mən məktəb yaşımda vətənpərvərlik hissini 20 Yanvar şəhidlərindən öyrəndim. Hadisələrin siyasi tərəfini qəti anlamadan uşaq yaşımla əli yalın tank önünə çıxan ölməzləri özümə müəllim bildim. Məktəbli də oldum, tələbə, məzun kimi dövlət işçisi də, həmişə bir söz deyirdim: "O şəhidlər üçün ağlamaq lazım deyil. Düzdür, yarımçıq bir ömür yaşadılar, amma onlar öz ölümləri ilə bir qəhrəmanlıq səhifəsi açdılar.
Bu gün matəm yox, qəhrəmanlıq günüdür!"

O səhifədən yol aldı Vətən yolçuluğu. Birinci, İkinci, Üçüncü Qarabağ döyüşlərinə gedən yol 20 Yanvar şəhidlərinin açdığı cığırla başlayırdı...

Vətən bütövlüyü, milli qürur, mənəvi azadlıq istəyən minlərlə insanın hayqırtısı böyük bir imperiyanı növbəti dəfə sarsıtdı. Özünü qorumaq üçün atdığı addım onu öz çanağıyla boğacaqdı... Hələ ki Azərbaycan şəhidləri üçün ağlayırdı. Xoş günlərin bəzəyi olan qərənfillər artıq şəhid gülünə çevrildi. Şəhid dediyimiz o müqəddəslər Bakının ən uca nöqtəsində – Çəmbərəkənd qəbiristanlığında, Kirovun heykəliylə parka çevrilən bir məkanı Şəhidlər xiyabanına çevirdi. Azərbaycana uzanan qara əllər öz qaramatında idi. Bağlı sərhədlərin xaricində onunla ağlayanları olsa da, daxilində tək idi. Laxlamış quruluş artıq iflas etmişdi. 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan müstəqilliyin bütün maddiyyatına malik olsa da təcrübəsiz varisin çaşqınlığını yaşayırdı.

Vətənpərvər gənclər özləri özünü müdafiə dəstələri kimi ordular yaratdılar. Köhnə hakimiyyətdən qalma sovet hərbçiləri havadar olduğu hayları da silahlandırdılar. Azərbaycanın kürəyinə saplanan bıçaqları Xocalıdan Şuşaya qədər onların köməyi ilə etdilər. Azərbaycan ordusu isə nə müasir hərbi texnikaya, nə savadlı hərbçilərə, nə də davamlı arxa duran rəhbərlik görmədi. Vətənpərvər gənclər müxtəlif əqidəli komandirlərin alətinə çevrildilər. Bəzən aldıqları kəndlərdən, şəhərlərdən belə xüsusi əmrlərlə geri çəkilməli olurdular. Bax beləcə 88-dən başlayan xalq hərəkatı 90-da şəhidlik zirvəsinə çatdı və açılmış cığırla irəli deyən oğullar arxadan vurularaq məğlub edildilər...

Tariximiz Birinci Qarabağ müharibəsi deyilən ikinci şəhidlik zirvəsini də fəth etdi. 27 il tarixdə çox qısa bir zaman olsa da, biz bu dövrü yaşadıq – qaçqınlı, köçkünlü... Təzəcə müstəqil olan, nə gözəl ki, iqtidar təcrübəli, Azərbaycanın hər qarşını əzbər bilən, bir sözlə, nəinki Azərbaycanı, bütün SSRİ-ni idarə etmiş bir adamın Prezident olması Azərbaycan Respublikasının taledən töhvəsi imiş...

Atəşkəslə öz planlarını qurdu, neft kontraktı ilə bərkitdi, xarici səfərlərlə özünü tanıtdı... Siyasəti siyasətsiz qışqıranlara inanan bizlər atəşkəsdən narazı şəkildə "itirilən torpaqlarımız nə vaxt qayıdacaq" deyərkən, siyasəti siyasət süfrəsində həll etməyi bacaranlar 44 gündə 27 ilin maddi və texniki, siyasi karyerası ilə elə addım atdı ki, nəinki dünyanı, özümüzü də şoka saldı. 44 gündə öz haqq səsiylə dünyanı da, düşməni də susdurdu. 44 gündə 3000-dən çox şəhid verdi Azərbaycan. Bu artıq Azərbaycan taleyinin üçüncü şəhidlik zirvəsi idi.

Azərbaycan ordusu, Ali Baş Komandanın zabitəsi, "Dəmir yumruğunun" səbrini 3 il də gözlədi və 23 saat 11 dəqiqəyə özünün 86.6 min kv.km ərazisini bərpa etdi... Və dördüncü şəhidlik zirvəsi! Bu, Azərbaycan tarixinin qızıl səhifəsi idi. Tarix boyu türk torpaqları genişlənib, intibah dövründən bədxah düşmənlər torpaqlarımızı böldülər, mənimsədilər. İtirilən torpaqların bərpası da uzun zamandan sonra bir tarix idi.

Bax beləcə 20 Yanvar şəhidlərinin atdığı addımların səsiylə, cığırların iziylə, qələbənin ümidiylə qalib olmağa çalışanlar, Azərbaycan ordusu, ağıllı sərkərdəsiylə iki dəfə qalib gəldi. Müasir Azərbaycan tarixində şəhid adı ölməzlik simvoluna çevrildi.

Şəhid deyəndə isə hamımız bütövlükdə itirdiyimiz Azərbaycan oğullarını düşünürük. Heç vaxt unutmayaq ki, şəhid müqəddəsliyinə gedən yol 17 noyabrda millətin dirçəlişi üçün ayağa qalxan, minlərlə insanın şaxtada meydanlarda qalan, 20 Yanvarda əli yalın tank önünə çıxan o nəsildən başladı. O yol Xankəndində bitdi. Qəlbimizə azadlıq toxumu səpən, ölümləri ilə hələ uşaqlıqdan yaddaşımıza qərənfilli qəbirlə kimi hopan, hər birinin taleyini az qala əzbərlədiyimiz gəlinli-bəyli, uşaqlı, babalı-nənəli, hətta naməlum şəhidləriylə Şəhidlər xiyabanı adlı bir and yerimiz də var. Bakının ən uca zirvəsindən sanki hamımıza əl edir, açdığım şəhidlik yolunu uca tut deyir, sənə qanımızla verdiyimiz Azərbaycanı qoru deyir.

Rahat uyu, şəhidim, qəhrəman oğulların Birinci Qarabağ müharibəsində ov tüfəngiylə, sahibsiz döyüşsələr də, ikinci, üçüncü dəfə "Dəmir yumruq" qüvvəsini hiss edərək, ağıllı planlarla, sağlam texnikayla dövlətini bərpa etdilər. Bütün bu yolun başlanğıcında siz vardınız, 20 Yanvar şəhidləri!

P.S.

Övladlarımı Şəhidlər xiyabanına aparmışdım. Həmişə fərqli suallar verən 1-ci sinif şagirdi oğlum Qorqud soruşdu ki, şəhidlərin istədikləri oldumu? "Oldu" deyərək uşağın xoşbəxt baxışını qırmadım, amma ürəyimdə "bura bir də Qarabağ azad olanda gələcəm" dedim. Onda Qorquda deyəcəm ki, 20 Yanvar şəhidlərinin iki istəyi vardı: Azərbaycanın müstəqilliyi və Qarabağın azadlığı. Bu gün onların ruhları rahatdır: Azərbaycan müstəqqil, Qarabağ azaddır!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# HƏR KƏSİN MƏSULİYYƏTİ İNSANLIĞI NİSBƏTİNDƏDİR

İnsan ağıl və zəkanın nəticəsi olaraq gəldiyi bu həyatda özünü müdafiə etmək, özünü qorumaq duyğusuna sahibdir. Bu duyğunun müsbət tərəfi olaraq insan özü ilə yanaşı sevdiklərini də gözlə görünən, hiss edilən təhlükələrdən maksimun dərəcədə müdafiə etmək istəyinə sahibdir.

Təhlükələr bəzən açıq-aşkar gözlə görünən olur və müdafiəsi də asan olur, bəzən də təhlükəni fərq edə bilmək üçün düşünmək qabiliyyətinə sahib olmalıyıq. Ancaq sizi inandırım ki, XXI əsrin təhlükəsini idrak edə bilmək üçün alim, filosof olmağa gərək yoxdur. İnsan olmaq, insan kimi düşünə bilmək kifayətdir... Yenə deyirəm, düşüncə qabiliyyətinə sahib olmaq əsasdır. Bizlər bu həyatda şüursuz canlılar deyilik. Bizi digər məxluqatdan ayıran bir özəlliyimiz də düşüncə qabiliyyətimizdir. Düşünməyi bacarmalı, düşüncənin nəticəsinin istiqamətinə baxılmalı və ondan sonra yönümüzü seçərək nəyi necə edəcəyimizə qərar verməliyik.

Bu gün bir fərdi olduğumuz bu cəmiyyətin istiqamətinə nəzər salmalıyıq, ətrafımıza nəzər salmalıyıq, həyatımızda olan insanların etdikləri seçimlərə, atdıqları addımlara baxmalıyıq. Eyni ailəni, eyni iş yerini, eyni məhəlləni paylaşdığımız insanların həyatımızdakı izlərinə baxmalıyıq. Ətrafdakı insanların bizim qəlbimizdə və zehinlərimizdə buraxdıqları izlərə baxmalıyıq. Özümüzü və sevdiklərimizi təhkükələrdən müdafiə etdiyimiz kimi, ətrafdakı insanların hal və hərəkətlərindən gələn təhkükədən də müdafiə etməyi bacarmalıyıq. Bu gün ətrafdakı insanlardan gələn mənfi yönlü düşüncələr inkişaf etmiş texnologiyanın insanlığa qazandırdığı silahlardan daha təhlükəli hala gələrək zehinləri işğal edir. XXI əsrin vəba xəstəliyi olaraq da adlandırmaq olar bunu. Bu gün insanların insanlar üzərində mənfi yöndəki təsir qüvvəsi güclüdür. Müsbət istiqamətdə yol gözəldir, al-əlvandır, ancaq onu seçən insanlar nadirdir. Lakin mənfi yönlü istiqamət xoş olmasa da, gəl gör ki, onu seçənlərin sayı boldur. Bol olmasının da səbəbi düşünmə qabiliyyətimizin zəif olmasıdır.

İnsan olaraq şəxsiyyətini qoru, kimliyini qoru, dilini qoru, qulaqlarını və gözünü qoru. Dünyanı paylaşdığımız insanların insanlığa, ədəbə, həyaya, vicdana uyğun gəlməyən mənfi görüntülərini görmək, dinləmək bizlərə zərər olaraq kifayətdir. Nə üçünmü? Çünki insan ilk mənfi bir səhnə gördüyündə verdiyi reaksiyanı o səhnəni 5 dəfə gördüyündə artıq vermir, ona görə ki, artıq göz və beyin o görüntünü ardıcıllıqla və tez-tez gördüyü üçün ona alışdı və beynində ona olan reaksiyası zəiflədi. Beləliklə, mənfiliklər yayıldıqca bizlər də tamaşa edərək dinləyərək bunu özümüz üçün adiləşdirdik. Hər şeyin bir qaydası, qanunu olduğu kimi, dünyada insan kimi yaşamağın da qaydası var, qanunu var, ancaq o qaydalar hər kəsin öz daxilində insanlığı və tərbiyəsi nisbətindədir. İnsanlığı düşünən, dərdi insanlıq olan, tərbiyəsi izin verməyən kimsələr qaydalara riayət edərkən bəziləri dünyanı şəxsi mülkləri zənn edərək hədsizcəsinə kirlətmə haqları olduğunu düşünürlər. Əslində, onlar böyük bir yanlış içərisindədirlər. Bizlər bu tərbiyəsizliyin qarşısını almaq məcburiyyətindəyik, bu, hər birimizin gələcək nəsillərə olan insanlıq borcumuzdur.

Yəni bizlər bu dünyanın ortaq vətəndaşlarıyıq, birimiz təmiz tutarkən, digərimizin bunun əksini etməyə haqqı yoxdur. Bu, bizim ortaq yaşam mülkümüzdürsə, hər birimiz əl birliyi ilə hər bir küncünü, hər bir tərəfini təmiz tutmalıyıq. Bu, hər mənada keçərlidir. Gözlə görülən tullantılar mövzusunda da, ədəbsizliyi, əxlaqsızlığı və vicdansızlığı yaymaq mövzusunda da.

Kimsə günahı kimdəsə görməsin, hamımız günahkarıq, qaydalara riayət edilmədiyini görüb hiss etdiyimizdə "mənə toxunmayan ilan min il yaşasın" düşüncəsi ilə yanaşdığımız üçün bu gün böyük bir təhlükə ilə qarşı-qarşıyayıq. Elə bir təhlükədir ki, bunu anlayıb idrak etmək və qarşısını almaq üçün iş sadəcə alimlərə düşmür, düşünmə qabiliyyəti olan hər kəs məsuliyyətə cəlb olunmalıdır. Yenə deyirəm, hər kəsin məsuliyyəti insanlığı və tərbiyəsi nisbətindədir. Bu səbəbdən əvvəlcə insanlıq və tərbiyə dağarcığını inkişaf etdirməyi bacarmalıyıq. Gerisi corab söküyü kimi özü gələcək, Allahın izni ilə.

**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

# HƏR ŞEY UŞAQLIQDAN BAŞLAYIR



Gün ərzində bir çox işlərimi həll etməyə çalışıram. Adətən axşam yatmazdan öncə plan hazırlayıram: sabah ilk öncə bu işimi həll edəcəm, sonra dərslərimlə məşğul olub biraz fasilə verib yenidən davam edəcəm; kitabdan son bir neçə səhifəm qalıb, onu bitirməliyəm, sonra araşdırdığım filmlərdən birinə baxmalıyam və s.

Günümü saatlara bölməyi uşaqlıqdan vərdiş halına gətirmişəm. Bu həftə Stefan Sveyqin "Qorxu" adlı kitabını bitirdim. Kitabın son səhifəsini oxuyub qapağını örtdükdən sonra fərqinə varmadan dəqiqələrlə kitabın üzünə baxıb qaldım. Həmin an metro qatarındaydım və neçə dayanacaq getmişəm xəbərim belə olmayıb, "sonuncu dayanacaq" deyəndə ayıldım. Yol boyu kitabın mənə nə verdiyi ilə bağlı düşünmüşdüm...

Romanda İrina adlı bir qadının qorxu içində yaşamasından söhbət gedir. Həyatdan sıxılmış bu qadının əvvəlcə öz arzusundan, sonra isə sahib olduqlarını itirmək qorxusundan bəhs edilir. Müəllif parlaq və xoşbəxt həyat yaşayan bu qadının psixologiyasını, həyatdan gözləntilərini, cəmiyyətin təzyiqini təsvir edir. Etdiyi bir səhvə görə vicdan əzabı çəkərək yalan danışmaq məcburiyyətində qalır. Çünki qorxur ailəsini itiməkdən, insanların təzyiqindən qorxur.

Romanı oxuyarkən insan psixologiyasının necə hər fərddə başqa ola biləcəyini, hər bir uşağın psixologiyasının ilk təməlini ailənin, valideynlərin qurduğunu bir daha dərk etdim. Varlı bir ailədə dünyaya göz açan roman qəhrəmanı uşaqlığını sərt bir rejimdə, dayələrin nəzarətində böyüyərək keçirib. Ona hər kiçik səhvində ağır cəzalar verilib və nəticədə böyüyüb yetişkən biri də olsa, ana da olsa yenə də o qorxu içində yaşayıb.

Uşaqlıq dövrü hər bir insanın həyat yolunun, fərdi inkişafının başlanğıcı və əsasıdır. "Hər şey uşaqlıqdan başlayır" fikri insanın taleyində həlledici rol oynadığını gördükcə bu fikri bir daha təsdiq edirik. Dünyanın müxtəlif coğrafi ərazilərində yaşamasından asılı olmayaraq, bütün uşaqlarda psixika eyni qanunauyğunluqlar əsasında inkişaf edir.

Həyatda hərkəsin öz vəzifələri vardır. Bu vəzifələrlə biz nəsə edirik, qarşılığında nəsə alırıq, lakin valideynlik vəzifəsi hər şeyi etməyinə baxmayaraq qarşılığında heç nə istəməyən yeganə vəzifədir. Hər bir valideyn istəyir ki övladı üçün ən yaxşı həyatı qursun. Bəzilərimiz elə düşünürük ki, valideynin tək vəzifəsi uşağını sevindirməkdən ibarətdir, lakin bu belə deyil. Valideyn övladını həyata düzgün hazırlamaq üçün, tərbiyələndirmək üçün vəzifələndirilib. Uşaqların tərbiyəsində ilkin olaraq cəzalandırmaq və mükafatlandırmaq bir qayda halında olmalıdır. Cəza və mükafatlandırma isə düzgün qaydada olmalıdır. Mükafatı təkcə yaxşı qiymətlər alanda və ya sözə qulaq asanda vermək düzgün eyil, çünki bu zaman həmin uşaq bilik sahibi olmaq üçün yox, sadəcə mükafat üçün çalışır. Cəzalandırmanın isə başlıca törətdiyi problemlər var ki, bunlardan biri də qorxudur. Etdiyi bir şeydən qorxduğu üçün özünü müdafiə etmək istəyir və yalana baş vurur. Yalan isə elə bir şeydir ki, bir dəfə əl atdınsa, daima həll yolunu yalanda tapmağa çalışırsan.

Uşaqların yalana baş vurmasının ən əsas səbəbi cəzalandırılmaqdan qorxmaqlarıdır. Uşaqlar çıxılmazda hiss etdikdə yalan danışarlar. Səhv etdikdə, misal üçün, evdə oyun oynayarkən qonaq otağındakı bir suveniri sındıran uşağın "mən eləmədim" deməsi əslində özünü qoruma ehtiyacındandır. Belə vəziyyətdə uşağa əsəbiləşmək yerinə, "gəl bir daha düşünək, ola bilər səhv xatırlayırsan", deyərək onu sakitləşdirmək lazımdır. Hər kəsin zaman-zaman nələrisə qıra biləcəyini başa salmaq lazımdır. "Sən yalan danışırsan", deyə bağırmaq uşağın yalan danışmasını artırar. Uşağı yalançılıqda ittiham etmək və onu qorxutmağa çalışmaq yalana davam etməsinə səbəb olar. Məqsəd onu cəzalandırmaq yox, səhvini başa düşməsinə və düzəltməsinə yardım etmək olmalıdır.

Uşaqların yalan söyləməsinin digər bir səbəbi isə diqqətsiz qaldıqları zaman baş verir. Ana və atanın, dostlarının və müəlliminin onu sevmədiyini düşünən uşaqlar özlərini dəyərsiz hiss edib, başqalarının diqqətini cəlb etmək üçün etmədiklərini edirmiş kimi danışarlar. Məsələn, qarnı ağrımadığı halda qarnının ağrıdığını, qiymətləri pis olduğu halda yaxşı olduğunu deyərlər. Bəzən isə valideynlər özləri uşaqları yalan danışmağa məcbur edirlər. Məsələn, telefon zəng çaldığı və ya qapı döyüldüyü vaxt onlar uşaqlardan xahiş edirlər: "De ki, mən evdə yoxam" və s.

Təəssüflər olsun ki, insan yalanın qəbuledilməz bir şey olduğunu bilə-bilə bəzi yerlərdə onun söylənməsinin gərəkli olduğunu düşünürlər. Yalançı insan özü də bunun pis bir əməl olduğunu bilir və bu yöndən baxdığımızda insan öz yalanları ilə hər kəsdən əvvəl özünü aldadır. Çünki yalançı insan ona "yalançı" deyilməsini istəməz. Axı bundan narahat olar.

Yalan insanı cəmiyyətdə etibarsız bir şəxsə çevirər. Yalan danışan bir insana isə heç kim güvənməz. Dürüst olmaq nə qədər insani və əxlaqi bir xüsusiyyətdirsə, yalançılıq da bir o qədər qeyri-insani və qeyri-əxlaqi davranışdır. Yalandan uzaq olun! Yalan insanı bataqlığa aparar. "Yalan yalanı gətirər" deyiblər. Çalışın ki, özünüz dürüst olasınız. Övladlarınız təkcə bu dürüstlüyü sizdə görsə kifayətdir, məncə. Səhv etmək önəmli deyil, dürüst övladlar yetişdirmək isə vacibdir.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# “KOROĞLU”NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE



(əvvəli ötən sayda)

Oxucu məni elə başa düşməsin ki, aşıq poeziyasının səviyyəsi yuxarıda xatırlanan paralelizm ilə kifayətlənir. Xeyr, o, nisbətən zəngindir, lakin aşıq xalq üçün anlaşılanları və daha çox qavranılanları reallıq və fiziki görüntü mühitindən kənara çıxmamasına cəhd göstərir. Məsələn: “Yarpaq kimi baş bədənnən tökərəm”, “Çay kimi coşmuşam, daha sönmərəm”, “Axır suda sınar suyun səhəngi”, “Dərindərin dəryalara dalmışam, heyva kimi saralmışam, solmuşam. Anamdan olan gün peşman olmuşam...” və sair.

Onu da unutmamalıyıq ki, aşıq poeziyası klassik ədəbiyyatın təsirinə məruz qalır və estetik məkanda Orta əsrlərin Yaxın Şərqin poetik aləminə məxsus olan müqayisələr, metaforalar özünü büruzə verir, bu da tamamilə təbiidir və gözləniləndir. Yarın siması tədricən özünü büruzə verir: “Bənzəyir cənnət quşuna” (Bax: “Koroğlu”, səh. 47; “ქოროღლი”, səh. 70-71). Artıq Telli xanımın portreti belə çəkilib:

**Bir mina gərdənli, durna boğazlı,**
**Bir alma yanaqlı, bir şəhla gözlü,**
**Tutu danışıqlı, qumru ağızlı,**
**Şirin dili canım aldı, Koroğlu!**

**Demə ki, Cünunun sözü yalandı,**
**Huridir, pəridir, nə cürə candır...** (Bax: “Koroğlu”, səh. 110; “ქოროღლი”, səh. 145).

İndi Cünun gələndə qarşısına çıxdığı, sevdasının başına saldığı Məhbub xanımın xarici görünüşünü sazda necə oxuduğunu xatırlayaq:

**Gözü göyçək, qaşı qələm,**
**Olmaz belə şirinkəlam,**
**Çəkər həsrətini aləm,**
**Məhbub xanım, Məhbub xanım.**

**Duruşu bənzər tərlana,**
**Gözəl doğub, gözəl ana,**
**Töküb tellərin gərdana,**
**Məhbub xanım, Məhbub xanım.**

**Dəli könül təlaşında,**
**Can qovrulu ataşında,**
**Qırx incə qız var başında,**
**Məhbub xanım, Məhbub xanım.**
**Aşıq Cünun çəkər nazı,**
**Ürək açar xoş avazı,**
**Rum elində paşa qızı,**
**Məhbub xanım, Məhbub xanım** (Bax: “Koroğlu”, səh. 361; “ქოროღლი”, səh. 384-385).

Yuxarıda gətirilən qoşmanı aşiqməşuqun bir-birinə qarşı sevgi və məhəbbəti, sadəliyin hüdudlarından kənara çıxmayan aşıq poeziyasının lirik tipik nümunəsi hesab edə bilərik.

Aşıq poeziyasında heç də az olmayaraq xalq müdrikliyi ilmələnib və xalq deyimləri müxtəlif baxımdan ifadə olunub. Məlumdur ki, təhlil olunan epos da bu baxımdan istisna deyil. Bu dəfə də bir neçə nümunənin üzərində dayanacağam: “Əhməd deyir keçmək olmaz, hər bir suyu içmək olmaz” (Bax: “Koroğlu”, səh. 47; “ქოროღლი”, səh. 71), “Təbibsiz xəstə dirilməz” (Bax: “Koroğlu”, səh. 116; “ქოროღლი”, səh. 151), “Mərd igidlər dolu badələr içər, namərd adam dava günündə qaçar, gedər daldalarda pəhləvan olu” (Bax: “Koroğlu”, səh. 121; “ქოროღლი”, səh. 156), “Bircə igid min qoşuna neyləsin” (Bax: “Koroğlu”, səh. 123; “ქოროღლი”, səh. 159), “Bülbül ölsə, gül solacaq” (Bax: “Koroğlu”, səh. 132; “ქოროღლი”, səh. 168), “Şeş atanda beş inildər” (Bax: “Koroğlu”, səh. 175; “ქოროღლი”, səh. 202), “Hansı igidin sonu yoxdu, ocaq sönər, daş inildər” (Bax: “Koroğlu”, səh. 175; “ქოროღლი”, səh. 202). “Söndürən ruzgardı, yandıran qovdu” (Bax: “Koroğlu”, səh. 179; “ქოროღლი”, səh. 207) və sair.

Düşünürəm ki, elə burada obrazlılığı ilə, dünyagörüşü ilə qavradığımız və mənəvi cəsarətliliyi ilə aşıq üçün xarakterik olan qoşmanın bəndlərini gətirsək artıq olmaz:

**Dost dostdan aralı gərək,**
**Qovğaya varalı gərək,**
**İgidlər yaralı gərək,**
**Dəmirçioğli, Dəmirçioğlu?!** (Bax: “Koroğlu”, səh. 131; “ქოროღლი”, səh. 168).

***

**Varlı, kasıb bu dünyadan keçərlər,**
**Yaxşını, yamanı görüb seçərlər,**
**Varın olsa gəlib yeyər, içərlər,**
**Yoxsul olsan qohum, qardaş yad olu** (Bax: “Koroğlu”, səh. 117; “ქოროღლი”, səh. 152).

***

**Uca-uca dağ başında,**
**Yaz bir yana, qış bir yana.**
**Titrəşir ağzım içində**
**Dil bir yana, diş bir yana.**

**Hər nə oldu mənə oldu,**
**Qaynadı paymanam doldu,**
**Gördün ki, düşman güc gəldi,**
**Qov bir yana, qaç bir yana.**

**Koroğlunun yox əlacı,**
**Misirdən gəlir xəracı.**
**Çəkəndə misri qılıncı,**
**Leş bir yana, baş bir yana** (Bax: “Koroğlu”, səh. 239; “ქოროღლი”, səh. 262-263).

***

**Səfərimdi şəhri Bağdad,**
**Kimdi mənnən köçən, gəlsin!**
**Yeddi hoqqa, hazır peşə**
**Məndən artıq içən gəlsin!**
**...**
**Hanı bu bağçanın gülü?**
**Oxumur şeyda bülbülü,**
**Koroğlu, üç əsir dəli,**
**Şirin candan keçən gəlsin!** (Bax: “Koroğlu”, səh. 242-243; “ქოროღლი”, səh. 267).

***

**Badələr içmişəm, hələ sərxoşam,**
**Qorx o günümdən ki, qaynayam, coşam,**
**Tüləklər sındıran bir tərlan quşam,**
**Sarlar şikarımı ala qoymaram** (Bax: “Koroğlu”, səh. 422; “ქოროღლი”, səh. 267).

***

**Mən aşiq ləngəridi,**
**Gəmidi, ləngəridi,**
**Çox bilib, az danışmaq**
**İgidin ləngəridi** (Bax: “Koroğlu”, səh. 422-423; “ქოროღლი”, səh. 446).

Sonda, fikrimcə, aşıq məhəbbət lirikasının obrazlılığının tipikliyini əks etdirən nümunə olaraq bir qoşmanı gətirəcəyəm:

**Başına döndüyüm gül üzlü xanım,**
**Xanım, hansı bəxtəvərin yarısan?!**
**Görcək səni yara oldu ciyarım,**
**Bir de, hansı bəxtəvərin yarısan?!**

**Siyah saçlar dar gərdənə düzülü,**
**Qara gözlər xumarlanıb süzülü,**
**Elə baxma, indi canım üzülü,**
**Xanım, hansı bəxtəvərin yarısan?!**

**Koroğlu haq deyib, haqdan dərs alıb,**
**Tər məmənə külək dəyib hovlanıb,**
**Qara gözlər şux yanaqdan can alıb,**
**Yoxsa, ay qız, bala qonmuş arısan?!** (Bax: “Koroğlu”, səh. 551; “ქოროღლი”, səh. 574).

Yuxarıda qeyd etdiyim kimi, gətirilən qoşmalar aşıq poeziyasının spesifik əlamətlərinin və xüsusiyyətlərinin daşıyıcısıdır. İndi mənim tədqiqatım zamanı, eləcə də aşıq şeirinin rəngkarlığı ənənəsinin göstəricisi olan, gətirilən başqa ünsürləri də xatırlasaq, onda aydın olar ki, qəhrəmanlıq epopeyasında orda-burda yedəklənən şeirlərin obrazlılığı klassik ədəbiyyatın rəngkarlıq səviyyəsinə nisbətən donuq rənglidir ki, bu da tamamilə təbiidir. İllah da ki, fikrimcə, bu sadəlik və real məişət ilə gözə çarpan yenilik və ələqə daha məqbuldur, yenə də o dövrün, elə götürək, bugünkü oxucu üçün bəyəniləsidir. Ondan xəbər verir ki, “Koroğlu” eposu bütün Şərq (bu istər Yaxın və Orta olsun) xalqları arasında bir növ populyardır, bunu da haqsızlığa və zorakılığa qarşı kəskin şəkildə əks olunan mübarizə ideyası və əhval-ruhiyyəsi, eləcə də onun sadə və real yazı üsulu, estetik “sadə”sinin kateqoriyasına uyğun gəlir. Və ən başlıcası, bu təhlil olunan əsərin estetik-emosiya məkanını nəinki tanıyır, eləcə də zənginləşdirir. Eyni zamanda o fakt da diqqətə layiqdir ki, eposda estetik-əxlaqi inanc önə çəkilibdir ki, buna da uyğun olaraq igidin dolğunluğu yalnız onun fiziki qüvvəsi ilə və yüksək döyüş məharəti ilə deyil, eləcə də onun mənəvi dərinliyi ilə, zənginliyi ilə müəyyən olunur. Başqa cür desək, o fiziki qüvvə və döyüş sənətinin məharəti ilə birlikdə poetik, musiqi və ifaçı istedadına, sənətinə malikdir. Bu isə ən qədim həqiqətdən başqa heç nə deyildir: İnsanın mükəmməlliyi ruh və bədənin harmonik ələqəsidir. Əks halda, biz faciəvi nəticə əldə edirik. Çünki mənəviyyatı və mənəvi cəsarətliliyi əskik olan, yalnız fiziki cəhətdən güclü insan səfeh, axmaq və biçimsizdir. Məhz elə onu Tanrının ali obrazına çevirən qüvvə müqəddəs, parlaq və yüksəlmiş mənəviyyatdır.

Elə burada birini də vurğulamalıyam ki, aşığın qoşqusu və repertuarı əsasən və başlıca olaraq mahnı üçün yaradılmışdır, buna da uyğun olaraq qoşqunun mətni bədii obrazları az əhatə edir. Əvəzində mətnin avazlılığına, evfonik səviyyəsinə, ritm və ritmik sxemə daha artıq diqqət yetirilir ki, bu da eposun poetik strukturunu mükəmməlləşdirir. Fikrimcə, bu əsas səbəblərdən biridir ki, təhil olunan eposda nəzmə nisbətən nəsr mətni poetikliyinə nisbətən bədii və obrazlılıq səviyyəsi ilə daha dolğundur. Lakin unutmamalıyıq ki, bu qəhrəmanlıq eposu nəinki nəsrə və nəzmə bölünür, eləcə də bir bütöv bədii əsəri, böyük kətanı təşkil edir, bu da rəngkarlıq çalarları ilə və musiqi notları ilə bizə estetik təsir axınını verir. Belə ki, bunu da sənətin ali nümunəsi kimi hesab etməliyik! Qəhrəmanlıq eposu “Koroğlu” barədə qavrayışım, məhz elə bu inanc ilə hopulmuş və dəyərləndirilmişdir!

(son)

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2024-CÜ İL
№ 01 (196)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## YANVARIN 1-DƏN QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ DƏYİŞİKLİK EDİLİB



2024-cü ilin 1 yanvarından qeyri-gürcüdilli ictimai məktəblər və sektorlar üçün şagirdlərin vauçer maliyyələşdirilməsi sayı dəyişdirilib.

Baş nazir İrakli Qaribaşvilinin imzaladığı sərəncama əsasən, qeyri-gürcüdilli məktəblərdə 1-ci sinifdən 8-ci sinfə qədər şagirdlərin vauçer maliyyələşdirilməsi məktəb tipinə görə müəyyən edilib.

Qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün 1-dən 8-ci sinfə qədər:

ბ.ა) Şagir sayı 170-dən 205-ə qədər olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 513 lari;

ბ.ა$^{1}$) Şagird sayı 170-dən 205-ə qədər olan dağlıq məntəqədə yerləşən qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 732 lari;

ბ.ბ) Şagird sayı 206-dan 299-a qədər olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 510 lari;

ბ.ბ$^{1}$) Şagird sayı 206-dan 299-a qədər olan dağlıq məntəqədə yerləşən qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 717 lari;

ბ.გ) Şagird sayı 300-dən 530-a qədər olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 498 lari;

ბ.გ$^{1}$) Şagird sayı 300-dən 530-a qədər olan dağlıq məntəqədə yerləşən qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 696 lari;

ბ.დ) Şagird sayı 531-dən 735-ə qədər olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 486 lari;

ბ.დ$^{1}$) Şagird sayı 531-dən 735-ə qədər olan dağlıq məntəqədə yerləşən qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 678 lari;

ბ.ე) Şagird sayı 736-dan 1269-a qədər olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 480 lari;

ბ.ე$^{1}$) Şagird sayı 736-dan 1269-a qədər olan dağlıq məntəqədə yerləşən qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 654 lari;

ბ.ვ) Şagird sayı 1269-dan çox olan qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 477 lari;

ბ.ვ$^{1}$) Şagird sayı 1269-dan çox olan dağlıq məntəqədə yerləşən qeyri-gürcüdilli ictimai məktəblər/sektorlar üçün – 651 lari;

*Mənbə: etaloni.ge*

## İSTEHSAL İLİ 2013-CÜ İLƏDƏK OLAN AVTOMOBİLLƏRİN GÜRCÜSTANA İDXALI QADAĞAN EDİLİB



Yanvarın 1-dən etibarən istehsal ili 2013-cü ilədək olan avtomobillərin Gürcüstana idxalı qadağan edilib. Bununla bağlı Gürcüstan hökuməti müvafiq qərar qəbul edib.

Qərara əsasən, istehsal ili 2013-cü ilədək olan minik avtomobillərinin 2024-cü il yanvarın 1-dən ölkəyə idxalı qadağa edilir. Lakin qərar qüvvəyə minənədək son 3 ayda alınan və müxtəlif səbəblərdən bu günədək ölkəyə gətirilməsi yubanan avtomobillərin idxalına icazə veriləcək.

Qərarda həmçinin qeyd olunub ki, 2025-ci il yanvarın 1-dən etibarən avtobus və yük maşınları üçün də analoji qadağa tətbiq ediləcək.

Bildirilib ki, sözügedən qərar Gürcüstanın “Avro-5” standartına keçidi ilə bağlıdır.

İqtisadçı ekspertlərin hesablamalarına görə, hazırda Gürcüstanda istifadə olunan minik avtomobillərinin 90 faizindən çoxunun istehsal tarixi 2013-cü ildən aşağıdır.

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU 8,8 MİLYARD DOLLARA ÇATACAQ



Cari ilin sonunda Gürcüstanın xarici dövlət borcunun həcmi 23,7 milyard lari (8,8 milyard dollar) təşkil edəcək. Gürcüstan bu vəsaitin böyük hissəsini beynəlxalq banklara borclu olacaq. Bu barədə məlumat Gürcüstanın 2024-cü il dövlət büdcəsində yer alıb.

Bildirilib ki, bu borcun 17 180,8 milyon larisi banklara olacaq.

Ölkənin ən çox borcu Asiya İnkişaf Bankına (6 066,5 milyon lari), Dünya Bankına (5 995 milyon lari) və Avropa İnvestisiya Bankınadır (2 974,8 milyon lari).

Gürcüstanın beynəlxalq banklara olan borcları ilə yanaşı, 14 ölkəyə də 4,227 milyon lari borcu var.

Gürcüstanın kreditorları arasında Fransa, Almaniya, Azərbaycan, Avstriya, Yaponiya, Türkmənistan və Rusiya da yer alır.

## GÜRCÜSTANDA ÜDM ARTIMI 4,8 FAİZ SƏVİYYƏSİNDƏ PROQNOZLAŞDIRILIB




Dünya Bankı Gürcüstanın 2024-cü ildə iqtisadi inkişafı ilə bağlı proqnozlarında dəyişiklik edib. Dünya Bankının yanvar hesabatına əsasən, 2024-cü ildə Gürcüstanda ÜDM artımı 4,8 faiz səviyyəsində proqnozlaşdırılır. İyun ayında təşkilat Gürcüstan iqtisadiyyatının 5 faiz artacağını gözləyirdi.

Hesabata görə, 2021-ci və 2022-ci illərdə Gürcüstanın ÜDM-i ikirəqəmli sürətlə – müvafiq olaraq 10,5 faiz və 10,4 faiz artıb. Dünya Bankı iqtisadçılarının gözləntilərinə görə, 2023-cü ildə Gürcüstanda ÜDM artımı 2,1 faiz bəndi olmaqla 6,5 faiz təşkil edəcək. 2024-cü il üçün proqnoz 0,2 faiz bəndi azaldılaraq 4,8 faizə, 2025-ci il üçün isə 0,5 faiz bəndi azaldılaraq 4,5 faizə endirilib.

## GÜRCÜSTANIN BEYNƏLXALQ VALYUTA EHTİYATLARI ARTIB



Gürcüstanın beynəlxalq valyuta ehtiyatları 2023-cü ildə 101 milyon dollardan çox artıb. Bu haqda Gürcüstan Milli Bankının statistik məlumatlarında deyilir.

Bildirilir ki, 2023-cü ilin dekabrına ölkənin beynəlxalq ehtiyatları 5,003 milyard dollara çatıb, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 101,5 milyon dollar çoxdur. 2022-ci ilin dekabr ayının sonunda ölkənin valyuta ehtiyatlarının həcmi 4,901 milyard dollar təşkil edib.

Qeyd olunur ki, Gürcüstan Milli Bankı qızıl şəklində vəsait saxlamır.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.